# Arxeoloji ekspedisiya Qəbələnin Səlbir və Antik şəhər yerində tədqiqat aparır

(Əvvəli 5-ci səhifədə).

da müxtəlif rəngli şüşələrin tapılması vaxtilə orada şəbəkəli pəncərələr olduğundan xəbər verir. Tədqiqatlar zamanı xeyli sayda saxsı məmulatı, inşaat detalları, metal əşyalar aşkarlanıb. Tikili kompleksi eramızın XII-XIV əsrləri arasındakı dövrə təsadüf olunur. Daha sonra bu kompleks tərk edilib və zaman keçdikcə kütləvi dağıntıya məruz qalıb. XV əsrdən sonra həmin hissədə kiçik qəbiristanlıq salınıb ki, qəbirlərin qazılması nəticəsində binanın bəzi divarları və bünövrə yerləri daha da dağılıb.

Paralel olaraq Səlbir yaşayış yerində Azərbaycan-Koreya beynəlxalq arxeoloji ekspedisiyası da fəaliyyət göstərir. Birgə tədqiqatlar Səlbirin mərkəzi hissəsində su anbarı ehtimal edilən çökəklik yerində davam edir.

İkiillik fasilədən sonra Antik və ilk orta əsrlər Qəbələ arxeoloji ekspedisiyası Antik şəhər yeri ehtimal olunan Çaqqallı sahəsində də tədqiqatları bərpa edib. Antik şəhər yerində mərhum arxeoloq, professor İlyas Babayevin rəhbərliyi ilə uzun illər aparılmış genişmiqyaslı qazıntılar nəticəsində aşkarlanmış dulusçuluq emalatxanası ətrafında qazıntılar hazırda davam etdirilir. Eramızdan əvvəl II əsrə aid olan dulusçuluq emalatxanasının ətrafı, dulus kürələri tədqiqata cəlb olunub.

Antik və ilk orta əsrlər Qəbələ arxeoloji ekspedisiyasının əsas istiqaməti Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələdə erkən şəhər mədəniyyətinin formalaşması, urbanizasiya problemi, yaşayış yerlərində mədəni təbəqələr əsasında davamlı həyat tərzinin öyrənilməsidir.

Arxeoloji çöl-tədqiqat işləri SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının maliyyə dəstəyi ilə həyata keçirilir.

**"Qəbələ"**

# *Videoçarx nümayiş etdirilmişdir*

*Qəbələ Uşaq Ailələrə Dəstək Mərkəzinin və Qəbələ Regional "ASAN xidmət" Mərkəzinin birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişinin 50 illiyinə həsr olunmuş tədbir keçirilmişdir.*

*Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə rayon icra hakimiyyətinin nümayəndəsi Absalam Hüseynov, təhsil şöbəsinin müdiri Arifə Bayramova, rayon tarix-diyarşünaslıq muzeyinin və digər müəssisələrin nümayəndələri iştirak etmişlər.*

*Azərbaycan Respublikası Dövlət Himninin səslənməsindən sonra giriş sözü ilə tədbiri UADM-in direktoru Günel Ağayeva açmışdır.*

*Tədbirdə Absalam Hüseynov, Arifə Bayramova və digərləri çıxış edərək Heydər Əliyevin Azərbaycan xalqı qarşısında və dövlətçiliyimizin qorunması sahəsində göstərdiyi misilsiz xidmətlərdən danışmışlar.*

*Tədbir iştirakçılarına UADM-in qeydiyyatında olan uşaqların hazırladıqları bədii kompozisiya təqdim olunmuş, ulu öndərin həyatına və siyasi fəaliyyətinə həsr edilmiş video-çarx nümayiş etdirilmişdir.*

***Hökümə İSMAYILOVA,***
***mərkəzin mütəxəssisi.***

# Rəsm sərgisi təqdim edilib

Rayon uşaq və ailələrə dəstək mərkəzinin və tarix-diyarşünaslıq muzeyinin birgə təşkilatçılığı ilə "İşğal altında olan torpaqlarımız– Ağdam 26 il" adlı tədbir keçirilib.

Torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlanan tədbirdə UADM-nin sosial iş üzrə mütəxəssisi Hökümə İsmayılova elan olunmamış Qarabağ müharibəsindən, Ağdam rayonunun qismən işğal altında olan torpaqlarında ermənilərin törətdikləri vəhşiliklərdən söz açıb.

Tədbirdə Heydər Əliyev Mərkəzinin direktoru Kəmalə Qasımova, tarix-diyarşünaslıq muzeyinin əməkdaşı Çimnaz Müzəffərova və digərləri çıxış edərək Ali Baş Komandan İlham Əliyevin əmri ilə torpaqlarımızın istənilən an düşmən tapdağından azad edilməsinə qadir olan milli ordumuzun aprel döyüşlərindəki şücaətindən danışıblar.

Sonda tədbir iştirakçılarına Ağdam şəhidlərinə həsr olunmuş rəsm sərgisi təqdim edilib.

**İradə RƏSULZADƏ,**
**mərkəzin sosial iş üzrə mütəxəssisi.**

# Yay təcrübə proqramı

Qəbələ Dövlət Peşə Tədris Mərkəzinin tələbələri üçün yay təcrübə proqramı keçirilib. Avqustun 30-dək davam edən pilot layihə çərçivəsində aqroservis mütəxəssisi və bitkiçilik mütəxəssisi ixtisaslarında təhsil alan birinci kurs tələbələri rayonun aqroservis müəssisələrində və fermer təsərrüfatında təcrübə keçiblər.

Yay təcrübəsinin təşkil olunmasında əsas məqsəd tələbələrin duala bənzər peşə təhsili və təlimi sisteminə uyğun olaraq nəzəri biliklərinin praktik bacarıqlarla zənginləşdirilməsinə şərait yaratmaqdan ibarətdir. Tələbələr mühəndis-pedaqoji heyətin, eləcə də müəssisə tərəfindən təyin olunmuş mütəxəssislərin müşayiətilə iş prosesində yaxından iştirak edib, istifadə olunan maşın və avadanlıqların iş prinsiplərini, texnoloji prosesləri öyrənib, həmçinin peşəkar mütəxəssislərlə birlikdə çalışaraq onların təcrübələrindən faydalanmaq imkanı əldə ediblər.

**"Qəbələ"**

# Tütün yığımına başlanılıb

Bu il Qəbələ rayonunda 75 hektar sahədə tütün əkilib. Fermerlərimiz cari mövsümdə 5 hektarda "Virciniya" növlü ətirli, 70 hektarda isə yerli tütün sortları yetişdirirlər. Artıq təsərrüfatlarda tütün yığımına başlanılıb.



Əvvəlki illərdə olduğu kimi, fermerlər bu il yenə də yerli tütün sortlarının əkininə üstünlük veriblər. Yaxın günlərdə "Virciniya" növlü tütünün dəriminə də başlanılacaq.

Xatırladaq ki, ötən il qəbələli fermerlər 75 hektar sahədə tütün yetişdirib, 99 tonadək quru tütün istehsal ediblər.

**"Qəbələ"**

# Tarixin əvəzsiz yadigarı

(Əvvəli 6-cı səhifədə).

Qazıyev tərəfindən Səlbir ərazisində bir neçə yerdə gizli su arxları aşkar edilmişdir. Həmin arxlardan birinin eni və dərinliyi 40 sm-dir. Kvadrat formalı bişmiş kərpiclə səliqə ilə hörülmüş arxın içərisinə bir-birinə geydirilmiş saxsı su tüngləri düzülmüşdür. Tünglərin uzunluğu 42 sm, diametri dar tərəfində 10, enli tərəfdə isə 16 sm-dir.

Arxeoloqlar tərəfindən Səlbirin şərq tərəfində, Covurlu çaya yaxın hissədə daha bir su arxının qalıqları aşkar edilmişdir. Bu arx şəhər ərazisini qərb tərəfdən kəsərək Covurluçay istiqamətində uzanır. 1980-ci illərdə Səlbir ətrafındakı yol genişləndirilərkən orada şəhəri içməli su ilə təmin edən ana su xəttinin qalıqları aşkara çıxmışdır.

Qəbələ antik dövrdəki kimi, orta əsrlərdə də çox mühüm sənətkarlıq mərkəzi olmuşdur. Arxeoloji qazıntılar zamanı tapılmış zəngin maddi mədəniyyət nümunələri orada daşişləmə, metalişləmə, sümükişləmə, ağacişləmə, dulusçuluq, şüşə istehsalı, zərgərlik, boyaqçılıq, dabbaqlıq, toxuculuq və digər sənət sahələrinin geniş inkişafından xəbər verir. Qala divarları daxilində, yəni, həm Səlbirdə, həm də Qala ərazisində bir neçə yerdə kürə qalıqları, istehsal ocaqları, çoxsaylı istehsal çıxarları tapılmışdır. Arxeoloji materialların təhlili göstərir ki, ölkənin paytaxtı olmaq statusunu itirəndən (V əsr) sonrakı dövrdə Qəbələnin dünyanın bir çox ölkələri və iri ticarət mərkəzləri ilə mədəni-iqtisadi əlaqələrinin miqyası da nəzərə çarpacaq dərəcədə genişlənib. Şəhər xarabalıqlarında və onun ətrafında aparılan tədqiqatlar zamanı tapılmış çoxsaylı sikkələr, Çindən, İrandan, Roma imperiyasından gətirilmiş rəngarəng çeşidli maddi mədəniyyət nümunələri də bunu təsdiq edir. Qəbələ və onun ətrafından tapılan dəfinələrdə Sasanilər dövrünə (226-551-ci illər) aid pullar aşkar olunmuşdur. Məsələn, 1964-cü ildə Qəbələ şəhəri xarabalıqlarından 2-3 km cənub-qərbdə taxıl əkmək üçün yer şumlanarkən içərisində Sasani şahı II Bəhramın (276-293-cü illər) adına kəsilmiş gümüş draxmalar olan nadir dəfinə tapılmışdır.

Maraqlıdır ki, 200 ədəd sikkədən ibarət olan bu dəfinədə Sasani pulları ilə yanaşı Parfiya hökmdarı Qotarsın (41-51-ci illər), Roma imperatorları Otonun (69-cu il), Vaspasianın (69-79-cu illər), Trayanın (98-117-ci illər) və Adrianın (117-138-ci illər) denarləri də olduğu qeydə alınmışdır.

Burada aparılan arxeoloji tədqiqatlar zamanı dünyanın ən müxtəlif ölkələrində istehsal olunmuş məişət və bəzək əşyalarına da təsadüf olunmuşdur.

1970-80-ci illərdə Qəbələdə hər il ən azı 4 ekspedisiya işləyirdi. 1990-cı ildən etibarən həmin ekspedisiyaların fəaliyyəti tam dayandırılmış və yalnız 18 illik fasilədən sonra, yəni 2008-ci ildə Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının dəstəyi ilə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun iki dəstədən ibarət Qəbələ Arxeoloji Ekspedisiyası yenidən şəhərin antik və orta əsrlərə aid ərazilərində tədqiqatlara başlamışdır.

Qalanın şimal qərb hissəsində 2008-ci ildə aparılan kəşfiyyat qazıntısı da uğurlu nəticələr vermişdir. Oarda ilk dəfə olaraq Qalanın kiçik qapı yerlərindən biri və onun yanında keşikçi məntəqəsi aşkar edilərək öyrənilmişdir. Tədqiqat yerindən ilk dəfə olaraq qala qapısının açarı, saxsı borulardan ibarət çoxşaxəli su xətti şəbəkəsi, XII əsrdə istehsal olunan və üzərində döyüşçü-mühafizəçi təsviri olduğu güman edilən şirli kasa, içərisində ərəb əlifbasında "Allahın adı ilə..." kəlamı olan və çox güman ki, ritual məqsədlər üçün istifadə olunan şirli piyalə, habelə elmi cəhətdən olduqca mühüm əhəmiyyət kəsb edən çoxsaylı digər qiymətli tapıntılar əldə olunmuşdur.

AMEA-nın müxbir üzvü İlyas Babayevin rəhbərlik etdiyi dəstə antik Qəbələdə, Qafar Cəbiyevin rəhbərlik etdiyi orta əsrlər dəstəsi isə şəhərin Qala hissəsində tədqiqat işləri aparmışdır. Bu tədqiqatlar şəhərin XVI-XVII əsrlər tarixinin bir sıra məsələlərinin öyrənilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Üzə çıxarılan çoxsaylı tikinti qalıqları və inşaat materialları Qəbələdə, ümumilikdə Azərbaycanın orta əsr şəhərlərində şəhərsalmanın və memarlıq sənətinin inkişaf səviyyəsini daha dərindən və əhatəli şəkildə araşdırmaq üçün geniş imkanlar açır. Yeni açılan istehsalat xarakterli qalıqlar, metal, keramika, şüşə və sümük nümunələri ayrı-ayrı sənət sahələrinin vəziyyəti, habelə şəhər əhalisinin məişəti və mədəni səviyyəsi barədə ətraflı təsəvvür yaradır. Tədqiqatlar zamanı əldə olunmuş sikkələr, fayans, farfor və seladon qab nümunələri Qəbələnin XVI-XVII əsrlərdə dünyanın bir sıra ölkələri, o cümlədən İran və Çinlə olan intensiv ticarət əlaqələrindən xəbər verir.

**«Qəbələ»**